

# Zərdablılar baramaçılıqda, taxılçılıqda yüksək göstəricilər qazanmışlar

## İndi isə növbə pambıqçılarındır

***❐ Zərdab Rayon İcra Hakimiyyətində pambıq yığımı ilə əlaqədar yaradılmış operativ qərargahdan aldığımız son məlumat belədir: bu günə kimi rayon üzrə 340 ton “ağ qızıl” tədarük edilmişdir. Yuxarı Seyidlər, İsaqbağı, Bıçaqçı, Məmmədqasımlı kəndlərinin fermerləri pambıq yığımında xüsusilə fərqlənirlər.***

Rayon Aqrar İnkişaf Mərkəzinin direktoru Vidadi Bayramov əvvəlcədən hansı kəndlərə gedəcəyimizi müəyyənləşdirmişdi. Elə bu zaman qarayanız bir oğlan əlindəki kağızlara baxa-baxa direktora yaxınlaşdı:

– Bilirsiniz ki, bizim sahələrin çoxu maşınla yığım üçün nəzərdə tutulub. Dərmanlama aparılıb, sovkaya qarşı vaxtında tədbirlər görülüb. Bir sözlə, sahələr maşınla yığıma tam hazırdır. Ancaq kombayn tapa bilmirik. Xahiş edirik, kömək edəsiniz.

– Axı, sizdə əllə yığılacaq sahələr də var. Bəyəm, yığım başa çatıb?

– Xeyr, başa çatmayıb. Bizi narahat edən məhsulu maşınla yığılacaq sahələrdir. Qozalar tam açılıb, əgər havalar pisləşsə, yağış yağsa…

Direktor gənc fermeri diqqətlə dinləyəndən sonra harasa zəng elədi, kiminləsə danışıb müvafiq gösətriş verdi. Sonra da:

– Gedək, sizin sahələrə bir də baxaq, – deyə oğlanı maşına dəvət etdi.

Öyrəndik ki, Anar Kərimov Şilyan kəndində yaşayır. Rayonun qabaqcıl fermerlərindən biridir. Bir neçə ildir ki, tarlalardan yüksək məhsul götürür. O da məlum oldu ki, pambıqçılığa o qədər də fikir verilmədiyi illərdə də, o pambıq əkib-becərib. Sözbət zamanı səbəbini belə izah etdi:

– Bizim camaatda pambıqçılığa böyük həvəs və maraq var. Adamlarımız bu qiymətli bitkinin, necə deyərlər, dilini yaxşı bilir, bu sahədən yüksək gəlir götürməyin sirlərinə bələddirlər. Ona görə də heç vaxt pambıqçılıqdan əl çəkməmişik. Son illər isə dövlət səviyyəsində bu sahəyə göstərilən diqqət və qayğı, imzalanan fərman və sərəncamlar bizə əlavə qol-qanad verdi. Nəticədə əkin sahələrini genişləndirdik. Məsələn, biz bu il pambıq əkin sahələrini 200 hektara çatdırmışıq. Daha çox ona nail olmağa çalışırıq ki, hər hektarın məhsuldarlığını daha da artıraq. Builki hədəfimiz isə belədir: hər hektardan 35 sentner “ağ qızıl” götürməli! Hələlik, əldə etdiyimz nəticələr göstərir ki, vədimizə əməl edəcəyik.



Maşınımız cərgə ilə əkilmiş söyüd ağaclarının kölgəsində dayandı. Anar Kərimovun bayaq haqqında narahatlıqla danışdığı pambıq sahələri buradan başlanır. Ağ örpəyə bürünmüş tarlalarda gəzdik, barlı kollara nəzər saldıq və yəqin etdik ki, fermerin nigarançılığı əbəs deyilmiş. Doğrudan da, sahələr maşın yığımına tam hazırdır.

Çox gözləməli olmadıq. Bir azdan təcili göndərilmiş pambıqyığan maşınlar sahələrə yan aldı. Vidadi Bayramov:

– Razı qaldınmı? – deyə təbəssümlə fermerə baxdı.

– Çox sağ olun, əlbəttə, razı qaldım.

İşləri yoluna qoyulmuş fermerlə sağollaşıb Bəyimli qəsəbəsinə yollandıq. Gözəl Zeynalova ilə də burada tanış olduq. Onun başçılıq etdiyi fermer təsərrüfatı cari ildə 6 hektar sahədə pambıq yetişdirmişdir. İndiyə kimi 5 tondan çox məhsul yığılmışdır. Söhbət zamanı qabaqcıl fermer dedi:

– Düzdür, pambıq əkdiyimiz sahələr o qədər də çox deyil. Məsələ burasındadır ki, biz daha çox əkin sahələrini yox, məhsuldarlığı artırmaq barədə düşünürük. Bu il məqsədimiz hər hektarın məhsuldarlığını 35 sentnerə çatdırmaqdır. Hələlik yığımın sürəti və kefiyyəti bizi qane edir. Məhsul toplanışına rayonda birincilər sırasında başlamışıq. Ümid edirəm ki, yığımı birincilər sırasında başa çatdıracağıq. Onu da əlavə edim ki, şum, səpin, becərmə işlərindən tutmuş yığıma qədər heç bir şeydən çətinliyimiz olmayıb. Müqavilə bağladığımız emal müəssisəsi bizi vaxtında gübrə, yanacaq, maşın-mexanizm və s. ilə təmin edib. Təhvil verilən məhsulun pulu isə elə həmin gün ödənilir.



Ramil Zeynalovla axşamüstü görüşdük. Onun başçılıq etdiyi fermer təsərrüfatı Sarıqaya kəndində pambıq əkib-becərir. Yığıma da faraş başlamışdır. İndiyə kimi tarlalardan 20 tona yaxın “ağ qızıl” yığılmışdır. Söhbət zamanı qabaqcıl fermer gələcək hədəflərindən də danışdı:

– Biz ötən ilə nisbətən pambıq əkini sahələrini xeyli artırmışıq. Məhsuldarlıq isə keçən illə müqayisədə hələlik 4 sentner çoxdur. Bu o deməkdir ki, ümumi gəlirimiz artacaq, qazancımız çoxalacaq. Bol qazanc isə firavan həyat, xoş güngüzəran deməkdir. Ona görə də gələn il pambıq əkini sahələrini daha da genişləndirməyi qərara almışıq.

Biz Hacalı Əmrahovun, Mehdi Həbullahovun, Əbülfət Əhmədovun başçılıq etdikləri fermer kollektivlərində də olduq, yığımın gedişi ilə maraqlandıq, nəticələrlə tanış olduq. Hər yerdə də məhsul toplanışının mütəşəkkilliklə aparıldığının şahidi olduq. Kənd əməkçiləri havaların əlverişli keçməsindən istifadə edərək aylarla gərgin zəhmət hesabına yetişdirdikləri məhsulu tez və itkisiz toplayıb təhvil verməyə çalışırlar.

Biz burada təkcə rayon pambıqçılarının fəaliyyətindən, yığımın gedişindən, yerlərdə işin təşkilindən bəhs etdik. Yeri gəlmişkən əlavə edək ki, Zərdab rayonunun kənd əməkçiləri bu ili baramaçılıqda, taxılçılıqda olduğu kimi, pambıqçılıqda da əsl dönüş ilinə çevirmək üçün böyük əzm və fədakarlıqla çalışırlar. Elə bu yerdə bəzi səciyyəvi fakt və göstəriciləri yada salmaq yerinə düşərdi.

2018-ci ilin məhsulu üçün 18 min 653 hektar sahədə taxıl əkilmiş, 60 min 150 ton məhsul istehsal olunmuşdur. Bu, rayonun tarixində ən yüksək göstərici olmaqla keçənilkindən 1328 ton çoxdur. Ümumi məhsuldarlıq 32,2 sentner, adambaşına düşən taxılın miqdarı isə 1 ton 29 kiloqram olmuşdur.

Prezident İlham Əliyevin 26 mart 2018-ci ildə pambıqçılığın inkişafı məsələlərinə dair Bərdə rayonunda keçirilən respublika müşavirəsində verdiyi tövsiyə və tapşırıqların icrası ilə əlaqədar rayonda Prezident Administrasiyasının məsul işçilərinin, yerli icra və bələdiyyə orqanları rəhbərlərinin, fermer və fərdi təsərrüfatçıların iştirakı ilə müşavirə keçirilmişdir. Həmin toplantıda pambıqçılığın inkişaf etdirilməsi ilə bağlı yeni texnikaların alınması, bu sahənin intensiv üsullarla inkişaf etdirilməsi, suvarmanın yaxşılaşdırılması, yığımın vaxtında aparılması, qəbul məntəqələrinin və emal zavodlarının fasiləsiz elektrik enerjisi ilə təmin olunması, kadr hazırlığının artırılması ilə bağlı müvafiq təhlillər aparılmış, işlərin daha yaxşı təşkili üçün konkret tapşırıqlar verilmişdir.




Müşavirənin yekunu olaraq müvafiq təkliflər paketi hazırlanaraq Prezident Administrasiyasına göndərilmişdir. 2018-ci il üçün nəzərdə tutulmuş 3 min 232 hektarda pambıq əkini aparmaq məqsədilə “MKT IK” MMC-nin Zərdab filialı və “Zərdab-Pambıq” MMC 702 torpaq mülkiyyətçisi ilə müqavilə bağlanmışdır.

İpəkçiliyin inkişaf etdirilməsi ilə bağlı Prezident İlham Əliyevin Qax rayonunda keçirilən respublika müşavirəsində qarşıya qoyduğu vəzifələrin icrası istiqamətində də konkret tədbirlər həyata keçirilmişdir. Bölgü üzrə 2018-ci ildə 1300 qutu barama qurdu qəbul edilərək normal bəsləmə aparılmış, nəticədə 53 ton 880 kiloqram barama tədarük edilmişdir. Bu, respublikada ən yüksək göstərici olmaqla, rayon üzrə proqnoz tapşırığa 10,6 faiz əməl edilmişdir. 2 min nəfərdən çox rayon sakini bu sahədə mövsümi işlə təmin olunmuşdur.

Ümumiyyətlə, cari ildə 201 hektarda kartof, 182,6 hektarda tərəvəz, 503,1 hektarda qarğıdalı, 182,6 hektarda tərəvəz, 503,1 hektarda qarğıdalı, 106 hektarda şəkər çuğunduru, 200 hektarda bostan, 204 hektarda çəltik və s. əkilmişdir.

Hazırda rayonda iri malın saylı 54 min 697 başa, qoyun-keçilər 113 min 580 başa çatmışdır. Bu da keçən ilin eyni dövrünə nisbətən müvafiq olaraq 85 və 289 baş çoxdur.

Əhalinin quş ətinə və yumurtaya olan tələbatını ödəmək məqsədilə “Turac-2008” Məhdud Məsuliyyətli Cəmiyyəti və rayonda fəaliyyət göstərən digər fiziki şəxslər ötən aylar ərzində 97 min baş cücə inkubasiya edərək əhaliyə satmışdır.

Arıçılığın inkişaf etdirilməsi istiqamətində də rayonda xeyli iş görülmüşdür, hazırda 99 təsərrüfatda 660 arı ailəsi saxlanılır.

Respublikamızda qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsi, regionların davamlı inkişafı sahəsində həyata keçirilən tədbirlərə uyğun olaraq, Azərbaycan hökuməti və ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin birgə maliyyələşdirdiyi layihə çərçivəsində Zərdab rayonunun Gəlmə kəndində yem emalı müəssisəsinin açılışı olmuşdur.

Göründüyü kimi, son illər Zərdab rayonunda kənd təsərrüfatı məhsulları istehsalı dinamik inkişaf etmiş, ümumi istehsal artmış, məhsuldarlıq yüksəlmişdir. Yuxarıda da, qeyd etdiyimiz kimi, baramaçılar respublika üzrə ən yüksək göstəriciyə nail olmuş, taxılçılar rayonun tarixində rekord nəticə qazanmışlar. İndi isə növbə “ağ qızıl” ustalarınındır.

***Ziyəddin SULTANOV,
“Xalq qəzeti”nin
bölgə müxbiri***